# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

YANVAR 2025-ci il CÜMƏ 17 yanvar № 10 (8058) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ





# Güclü iqtisadiyyat, Azərbaycanın dayanıqlı inkişaf modeli

*Azərbaycanda dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyada nüfuzu durmadan artan Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir. Həyata keçirilən mükəmməl islahatlar konsepsiyasının müəllifi Prezident İlham Əliyev ölkəmizin iqtisadi inkişaf modelini yaradıb və bu model dövlətimizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, Azərbaycanın iqtisadi tərəqqisinə, dünya birliyində mövqeyinin möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına zəmin yaradıb.*

"Keçən il iqtisadi inkişaf baxımından yenə də uğurlu il olmuşdur. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir. Hesab edirəm ki, inkişaf templəri bugünkü dünyanın mənzərəsinə nəzər salsaq, müsbət sayıla bilər. Yəni Ümumi Daxili Məhsul 4 faizdən çox artmışdır... Uzun illər bizim iqtisadi inkişafla bağlı əsas hədəflərimizdən biri sənaye istehsalının artırılmasıdır, qeyri-neft sənaye sektorunda artım daha da yüksəkdir. Bu, 7 faizdən çoxdur. Yəni əgər dünya iqtisadiyyatının artım templərinə və inkişaf etmiş ölkələrin inkişafına, yaxud da ki, tənəzzülə nəzər salsaq, görərik ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Əlbəttə ki, bunun təməlində düşünülmüş siyasət dayanır". Bu fikirləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib.

## Uğurlar bu il də dinamik tendensiyanın saxlanılacağına əsas verir

Dövlət başçısı müsahibəsində 2024-cü ilin sosial-iqtisadi yekunlarından danışarkən ötən ilin nəticələrini müsbət qiymətləndirib və neft hasilatının sabit qalması üçün düşünülmüş siyasət sayəsində bu sektorun ümumdaxili məhsula bundan sonra mənfi təsir göstərməyəcəyini xüsusi qeyd edib. İqtisadi artım 5 faizdən çoxdur. Ölkənin maliyyə vəziyyətini yaxşılaşdırmaq, rezervlərini artırmaq mümkün olub. İl ərzində valyuta ehtiyatları təqribən 5 milyard dollardan çox artıb və bu gün 72 milyard dollara bərabərdir. Əhalisi 10 milyon olan ölkə üçün bu, çox böyük göstəricidir. Bu ilin büdcəsi rekord səviyyədədir. Büdcə xərcləri 41 milyard manatdan çoxdur, icmal büdcə isə 48 milyard manatı ötüb. Yəni Azərbaycan tarixində bu qədər böyük büdcə olmayıb. İnkişaf etmiş ölkələr sırasında belə analoqlar yoxdur. Yəni bütün bunlar deməyə əsas verir ki, iqtisadiyyat dayanıqlıdır, öz resurslarına söykənir, heç bir xarici maliyyələşməyə ehtiyac yoxdur.

Prezident tərəfindən yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən Dövlət proqramları və makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatını daha da zirvələrə qaldırır.

Ölkə başçısı müsahibədə Avropa üçün enerji daşıyıcılarının təmin edilməsində Azərbaycanın yardımı ilə bağlı mülahizələrini də bölüşüb. Cənub Qaz Dəhlizi və onun artırılmasından istifadə edərək qaz təchizatının coğrafiyasının genişləndirildiyini, son zamanlar Avropada istismara verilmiş yeni interkonnektorlar vasitəsilə müxtəlif bazarlara çıxışın mümkünlüyünü qeyd edib. Azərbaycan 2025-ci ildə "Azəri-Çıraq-Günəşli"də "dərin" qaz layihəsi çərçivəsində ilk qazı əldə etməyə ümid edir. "Abşeron" yatağında qaz hasilatını 1,5 milyard kubmetrdən 5 milyard kubmetrə çatdırmaq üçün tərəfdaşlarla işləmək planları hazırdır.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Sosial-iqtisadi inkişafda əldə edilən böyük nailiyyətlər, islahatların düşünülmüş şəkildə aparılması, iqtisadiyyatın müasirləşməsi sosial dəyişikliklərin keçirilməsinə kompleks yanaşma zəminində baş verib. Ölkəmizdə mövcud sabitlik, əmin-amanlıq, xalq-iqtidar birliyi, milli həmrəylik - bütün bunlar çox önəmli amillərdir. Azərbaycan dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləyib və bütün uğurlarının, inkişafın təməlində iqtisadi dirçəliş dayanır, ölkə iqtisadiyyatının da təməlində neft strategiyası durur. Bu sektorda həyata keçirilən böyük layihələr, imzalanan kontraktlar, atılmış düzgün addımlar, "Yeni Əsrin müqaviləsi", Cənub Qaz Dəhlizi, TANAP, TAP kimi layihələr Azərbaycanın gəlirlərini artırmaqla yanaşı, ona əlavə üstünlüklər qazandırır. Nəhəng neft-qaz layihələri göstərir ki, bütün öhdəliklər yerinə yetirilir və Azərbaycanda çox gözəl sərmayə mühiti vardır. Bunu həm neft-qaz layihələrinin icrası zamanı nümayiş etdirmişik, həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya mühiti yaradılmışdır.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar effektiv nəticəsini verib. Xüsusən investisiya siyasətinin müsbət irəliləyişi müşahidə olunmaqdadır.



Artıq ölkəmiz investisiyalara ehtiyacı olan ölkədən investisiya yatırmaq imkanlarına malik olan dövlətə çevrilib. Ümumiyyətlə, ölkənin yatırım qoymaq imkanlarının genişlənməsi iqtisadi inkişafın əsas göstəricilərindən biridir. Hazırda Azərbaycanda milli investisiyalar əhəmiyyətli yer tutur. Bu da ölkənin inkişafının sürətlə getməsindən xəbər verir. Eyni zamanda Azərbaycan özünün ayrı-ayrı ölkələrdə investisiya yatırmaq imkanlarını da artırıb və bununla iqtisadi cəhətdən də cəlbedici ölkəyə çevrilib, makroiqtisadi sabitlik yaradılıbdır. İqtisadi islahatlar inflyasiyanın nəzarət altına alınmasına, büdcə balansının qorunmasına və valyuta mübadiləsinin stabilləşdirilməsi kimi makroiqtisadi göstəricilərin yaxşılaşdırılmasına yönəlibdir. Bu, investorların etimadını artırıb.

Hazırda dünyada yaşanan narahatlıqlar fonunda Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması ölkəmizin müsbət reallıqları ilə bağlıdır. Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev respublikamızın investisiya cəlbediciliyinin davamlı şəkildə artmasına qətiyyətli siyasi iradə nümayiş etdirir. Son 21 ildə respublikamızın investisiya cəlbediciliyinin artmasına hesablanan güclü hüquqi bazanın yaradılması və praktiki müstəvidə ardıcıl tədbirlərin görülməsi deyilənləri əyani şəkildə təsdiqləyir. Ölkəmizdə yeni şəraitdə reallaşdırılan islahat tədbirləri sırasında investisiyaların səmərəli təşviqi mexanizminin işə salınması böyük əhəmiyyət daşıyır. Azərbaycan xarici və daxili sərmayələri cəlb etməklə özünün uğurlu inkişafını təmin edir.

Yüksək səviyyəli infrastruktur quruculuğu daxili investisiya qoyuluşunun çox mühüm istiqamətlərindən birini təşkil edir. Paytaxt Bakıda və bölgələrdə dövlət investisiya qoyuluşu hesabına yaradılan müasir sosial və iqtisadi təyinatlı infrastruktur sayəsində Azərbaycan dünyanın qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. Eyni zamanda bu gün Azərbaycanla əməkdaşlıq etmək və milli iqtisadiyyatımıza sərmayələr yönəltmək istəyən ölkələrin və transmilli şirkətlərin sayı kifayət qədər çoxdur. Bu sırada öncül yerləri tutan Türkiyənin, Rusiyanın, İranın, Böyük Britaniyanın, İtaliyanın, Almaniyanın, ABŞ-ın və digər ölkələrin şirkətlərinin fəallığını xüsusi qeyd edə bilərik. Azərbaycana yönəldilən investisiyaların böyük bir qismi Avropa İttifaqı (Aİ) ölkələrinin payına düşür.

Bu gün Azərbaycana qoyulan sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi ictimai-siyasi sabitlikdir, xalq-iqtidar arasındakı birlikdir. Azərbaycan Ələt qəsəbəsində Azad İqtisadi Zonanın yaradılmasında dünyanın ayrı-ayrı ölkələrindəki oxşar qurumların müsbət təcrübəsindən bəhrələnməklə yeni yanaşma nümayiş etdirir. Belə ki, burada həm ölkəmizin regional inkişaf amili, həm də investorların rahatlığının təmin edilməsi maksimum dərəcədə nəzərə alınıb. Məlumdur ki, Azərbaycanda bölgələrin tarazlı inkişafına ciddi diqqət göstərilir. Bu baxımdan Azad İqtisadi Zonanın Ələt qəsəbəsində yaradılması çox yaxşı seçimdir. İqtisadi zonada yaradılacaq istehsal və paylama şəbəkəsində yerli əhalinin məşğulluğunun təmin olunması üçün yeni imkanlar yaranacaq. Paralel şəkildə xidmət şəbəkəsi genişlənəcək, bir sıra əlaqəli sahələr də inkişaf edəcək, quruculuq-abadlığa diqqət artacaq.

Düşünülmüş və məqsədyönlü siyasəti ilə regionda, dünyada mövqeyini möhkəmləndirən, siyasi çəkisini, nüfuzunu artıran Azərbaycanın tarixi Zəfərindən sonra beynəlxalq münasibətlər sistemində rolu daha da artıb. Bu ölkəmizin regionda liderliyinə və qlobal siyasətdə əhəmiyyətinə verilən qiymətin təzahürü kimi dəyərləndirilir. Artıq Azərbaycan öz resurslarına arxalanaraq güclü və müstəqil iqtisadiyyat qurur, heç kimdən asılı deyil. İqtisadi müstəqillik beynəlxalq müstəvidə böyük imkanlar qazandırır, ona görə də uğurla, inamla müstəqil xarici siyasət aparılır. Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyata, aparıcı hərbi gücə və aparıcı dövlətə çevrilib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun əldə etdiyi Zəfərlə tarixi ədalət bərpa olunaraq torpaqlarımız işğaldan azad edilmişdir. Vətən müharibəsi başa çatdıqdan sonra işğaldan azad edilmiş ərazilərin bərpası prosesinə başlanılmış, hazırda bərpa-quruculuq qarşıya qoyulan hədəf və məqsədlər çərçivəsində və nəzərdə tutulan icra mexanizmləri əsasında həyata keçirilir. Qarabağın və Şərqi Zəngəzurun bərpası dövlətimiz üçün hərbi məsələlərlə bərabər ən vacib prioritetlərdən biridir. Bu il həmin sahəyə ən azı 4 milyard manat, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün isə 8,4 milyard manat vəsait ayrılıb. Son üç il ərzində 10 yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaq mümkün olub. Bütövlükdə 30 minə yaxın insan orada yaşayıb, çalışır. Bu il üçün dövlətimizin planında daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaq nəzərdə tutulub.

Qazanılan uğurlu nəticələr ölkədə sosial proqramların daha fəal icra edilməsinə imkan verir. Son bir neçə il ərzində dörd sosial paket həyata keçirilib və bu məqsədlər üçün 7 milyard manatdan çox vəsait xərclənib. İqtisadi imkanlar artdıqca sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərilir. Bu il yanvarın birindən minimum əməkhaqqı 55 manat artıb və 400 manata çatıb. Minimum pensiya 40 manat artıb və 320 manat olacaq. Orta hesabla artım 14-15 faizdir. Qarabağın bərpası kimi böyük problemi olan ölkədə bu sahəyə də diqqət yetirmək siyasətimizin mahiyyətini göstərdiyini bidirən dövlət başçısı vurğulayır ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar: "Bütün bunlar onu deməyə əsas verir ki, biz iqtisadi sahədə dayanıqlı inkişafa nail ola bilmişik və əminəm ki, bu il və gələn illərdə bu dinamika saxlanılacaq".

**Mustafa KAMAL,**
**"Respublika".**